

## Nəsimi rayonu

# 2015-ci ilin sosial-iqtisadi yekunları

**Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycan 2015-ci ildə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasi fəaliyyəti nəticəsində inamla irəliləmiş və ölkə başçısının fəaliyyətinin ana xəttini iqtisadiyyatın şaxələndirilmiş inkişafı, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi, azərbaycançılıq, balanslaşdırılmış xarici siyasət, millətlərarası münaqişələrin praqmatik həlli, mükəmməl neft siyasəti, enerji təhlükəsizliyi, bəşəriyyətin taleyində çoxaspektli dialoqun rolu, tolerantlıq fəlsəfəsi kimi aktual, xüsusi çəkiyə malik məsələlər təşkil etməklə dövlətimizin və xalqımızın tərəqqisi təmin edilmişdir.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 10 yanvar 2016-cı il tarixdə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.

İclasda çıxış edən ölkə başçısı ötən ildə Azərbaycanda həyata keçirilmiş geniş miqyaslı işlərə, qazanılan uğur və nailiyyətlərə öz münasibətini bildirmiş, qarşıda duran vəzifələri müəyyənləşdirmişdir.

Əldə olunmuş nailiyyətlər nəzərə alınaraq 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir.

Respublikamızın hər yerində olduğu kimi Bakı şəhəri Nəsimi rayonunda da davamlı sosial-iqtisadi inkişafı, əhalinin rifah halının daha da yüksəlməsi təmin edilmiş, dinamik artım templəri üstünlük təşkil etmişdir.

Belə ki, 2015-ci il aprel ayının 22-də Prezident İlham Əliyev və xanımı – "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Heydər Əliyev adına İdman Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış oldular.

2015-ci ilin avqust ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakının Nəsimi rayonunun ərazisindəki Pişəvəri, Cavadxan, Hüseyn Seyidzadə küçələrində həyata keçirilən abadlıq və yenidənqurma işlərindən sonrakı vəziyyətlə, sentyabrın 10-da isə Bakının Nəsimi rayonundakı Texniki-Humanitar Liseydə görülən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakı sərnişin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yola salınması mərasimində iştirak etmişdir.

Rayonun iqtisadi və sosial həyatında baş verən dəyişiklikləri əyani surətdə əks etdirən makroiqtisadi göstəricilər 2015-ci ilin yanvar-dekabr ayları ərzində əvvəlki ilin müvafiq dövrünün göstəricilərini xeyli üstələmişdir.

2015-ci ilin yanvar-dekabr aylarında rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, əhaliyə faktiki qiymətlərlə 69428.3 min manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 5.6 faiz çox rabitə xidməti göstərilmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 17 yanvar 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində müvafiq tədbirlər görülmüşdür. Abadlıq və yaşıllaşdırma sahəsində tədbirlər davam etdirilmişdir. Proqram çərçivəsində 1 saylı orta məktəbin qəzalı idman zalının sökülərək yerində 10 əlavə sinif otağı və idman zalı tikilib istifadəyə verilmiş, 23 saylı orta məktəbin tikintisi başa çatdırılmış, Texniki-Humanitar təmayüllü lisey əsaslı təmir olunaraq istifadəyə verilmiş, 135 saylı körpələr evi-uşaq bağçası əsaslı təmir olunmuş, 147 və 174 saylı uşaq bağçalarında təmir işləri başa çatdırılmış, Heydər Əliyev adına İdman Konsert Kompleksinin əsaslı təmiri başa çatdırılmışdır.

Rayonun Səməd Vurğun küçəsində, 20 yanvar küçəsində Xüsusi Dövlət Mühafizə Xidmətinin 9 mərtəbəli, Moskva prospekti 16 mərtəbəli yaşayış binalarının fasadları əsaslı təmir edilmişdir. Bütün görülmüş işlərin keyfiyyətlə həyata keçirilməsi daim nəzarətdə saxlanılmışdır. Rayonun A.Məhərrəmov, Cavadxan və M.Kazımovski küçələrindəki yaşayış binalarının həyətlərindəki özbaşına tikilmiş hasarlar sökülmüş, ərazidə təmizlik işləri aparılmış, mövcud ağaclar budanmış, səliqə-sahman yaradılmışdır. M.Kazımovski, 20 yanvar küçələri və Moskva prospekti boyunca yolun kənarında yeni qazon örtüyü salınmış, yaşıllaşdırma işləri aparılmış, yeni yaşıllıq zolaqları salınmış, gül-çiçək kolları əkilmişdir.

Rayonun Mir Cəlal küçəsində 1964-1967-ci illərdə tikilmiş binaların qarşısında yerləşən yararsız halda 3 ha sahədən ibarət park son 2 ay ərzində əsaslı təmir olunmuşdur. Parkın ətrafında yerləşən 22 binanın fasadı təmir olunmuş, ətrafında abadlıq işləri aparılmışdır. Binaların 126 eyvanı əsaslı yenidən qurulmuş, 74 eyvan isə təmir edilərək sakinlərin istifadəsinə verilmişdir.

Bu ərazidə 4 park yenidən əsaslı təmir olunmuşdur. Mir Cəlal küçəsi boyunca parkların yararsız vəziyyətə düşmüş ərazisi tam təmizlənərək torpaq təbəqəsi yenilənmiş, yaşıllıq zonası salınmışdır. Belə ki, 17000 kv.m qazon, 2500 gül kolu əkilmişdir. Yaşıllıqların qorunub saxlanılması üçün suvarma sistemi çəkilmişdir. Parkın ərazisinə İtaliya istehsalı olan 2600 kv.m döşəmə daşı, 5000 kv.m metlax-kafel, 2200 kv.m aqlay döşənmişdir. Parkda fəvvarələr quraşdırılmış, yeni yaşıl örtüklü 33x16,5m ölçüdə stadion salınmışdır.

Nəsimi rayonu Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 2015-ci il ərzində Azərbaycan dövlətinin ilbəil güclənən və əhalinin rifah halının yaxşılaşdırılmasına səbəb olan sosial siyasəti Nəsimi rayonunda da uğurla icra olunmuşdur. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sosial müdafiə tədbirlərinin gücləndirilməsinə xidmət edən fərman və sərəncamlarının icrası ilə bağlı aztəminatlı əhalinin yaşayışının yaxşılaşdırılması üçün məqsədyönlü işlər görülmüşdür.

Hesabat dövrü ərzində ünvanlı dövlət sosial yardımı təyin edən komissiya tərəfindən 1165 ailənin 4311 nəfər ailə üzvünə ünvanlı dövlət sosial yardımı təyin olunmuş və hər ay ödənişə göndərilmişdir.

Hazırda Nəsimi rayonu Əhalinin Sosial Müdafiəsi Mərkəzində 5042 nəfər sosial müavinət və təqaüd alan vətəndaş vardır ki, onların da ödənişləri hər ay vaxtında həyata keçirilir.

Bu Sərəncama əsasən Fondun Bakı şəhəri Nəsimi rayon şöbəsi üzrə 22720 nəfər pensiyaçının əmək pensiyasının sığorta hissəsi üzrə aylıq 25,4 min manat artım olunaraq ödənilmişdir.



Əmək bazarında mövcud vəziyyət nəzərə alınmaqla işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi sahəsində rayon Məşğulluq Mərkəzi daha çox aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi sahəsinə üstünlük vermişdir.

2015-ci il ərzində Məşğulluq Mərkəzinə 3000 nəfər qeyri-məşğul əhalinin iş axtarmaq məqsədilə müraciət edəcəyi proqnozlaşdırılmışdır. Hesabat dövrü ərzində isə 4321 nəfər Məşğulluq Mərkəzinə müraciət etmişdir. Bu dövr ərzində ilk dəfə müraciət edənlərin sayı 1974 nəfər olmuşdur.

Hesabat ili ərzində Məşğulluq Mərkəzi tərəfindən 59 nəfər qaçqın və məcburi köçkün münasib işlə təmin olunmuş, 4 nəfər qaçqın və məcburi köçkünə isə işsizliyə görə müavinət ödənilmiş, 25 nəfər isə peşə təlimi kurslarına cəlb edilmişdir.

Rayon GEM-i tərəfindən 2015-ci il ərzində rayon ərazisində yoluxucu xəstəliklərin epidemiyası, kütləvi xəstələnmə halları və eləcə də kütləvi zəhərlənmə halları baş verməmişdir.

Nəsimi rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi tərəfindən 2015-ci ildə rayon ərazisində abadlıq və yenidənqurma işləri yerinə yetirilmiş, hesabat ilinin 4-cü rübündə rayon İH-in rəhbərliyi altında sakinlərin rahatlığının təmin olunması məqsədilə daha intensiv silsilə tədbirlər həyata keçirilmişdir.

Nəsimi rayon Elektrik Təchizatı və Satışı İdarəsi tərəfindən xidməti ərazidə abonentlərin elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədilə yarımstansiyalarda yenidənqurma işləri aparılmış, avadanlıqlar yenilənmiş, transformatorlar daha güclüsü ilə əvəz edilmiş, enerji verilişi xətləri müasir, etibarlı və dizayn baxımından ətrafa xələl gətirməyən kabel xətləri ilə dəyişdirilmişdir.

2015-ci ilin 12 ayı ərzində 638.16 mln kvts elektrik enerjisi istehlak edilmişdir ki, bunun da dəyəri 38.26 mln manat təşkil edir. (O cümlədən: əhali 13.34 mln manat, qeyri əhali 24.92 mln manat). İstehlak edilmiş elektrik enerjisinin dəyərinin 38.83 mln manatı və ya 101.5%-i toplanmışdır. Toplanan vəsaitin 13.67 mln manatı əhali sektorunun (102.5%), 25.16 mln manatı isə (101%) qeyri-əhali sektorunun payına düşür.

R.Zorge parkında və Rəşid Behbudov küçəsində 2 ədəd 35/10 kv-luq yarımstansiyanın quraşdırılması başa çatmışdır.

Nəsimi rayon Sukanal İdarəsi tərəfindən 2015-ci il ərzində içməli su təchizatı və kanalizasiya sahəsində mühüm işlər görülmüşdür.

Ümumilikdə, magistral və məhəlləndaxili su kəmərlərində 2936 ünvanda, kanalizasiya şəbəkələrində isə 9111 ünvanda baş vermiş qəzalar aradan qaldırılmışdır. Rayon ərazisində ümumi uzunluğu 3900.0 metrdən çox müxtəlif diametrli su xətləri çəkilmiş və ya qəzalı hissələri dəyişdirilmişdir, o cümlədən podratçı təşkilatlar tərəfindən 1500.0 metrdən artıq, rayonun öz gücü hesabına 2396.0 metr müxtəlif diametrli kanalizasiya xətti dəyişdirilərək, yenisi ilə əvəz olunmuşdur.

Əhalinin fasiləsiz su təminatına keçilməsi istiqamətində 2013-cü ildə icrasına başlanılmış və hazırda davam etdirilən "Azərsu" ASC-nin "Pilot" layihələri çərçivəsində 2, 3 və 4-cü mikrorayon ərazilərində 89 ədəd yaşayış binasının daxili və xarici su təchizatı tamamilə yenidən qurulmuş, hər bir mənzilə "Smart" tipli su sayğacı quraşdırılmış və zirzəmilərdə su axıntısı hallarına son qoyulmuşdur.

Qaz təsərrüfatının və elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması məqsədi ilə qaz xətlərində, elektrik yarımstansiyalarında əsaslı təmir işləri aparılır, qaz və elektrik təmizləyici qurğu və avadanlıqları yerləşdirilməsi və yeni yaşayış massivlərinin qazlaşdırılması və elektrik enerjisi ilə təmin olunmasının effektliyinin artırılması ilə bağlı Nəsimi rayon QİS və ETSİ tərəfindən bir sıra yenidənqurma işləri aparılmışdır.

2015-ci il ərzində Nəsimi Bələdiyyəsi tərəfindən "Bir bələdiyyə - azı bir layihə" təşəbbüsü çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Beynəlxalq Ətraf Mühitin Saflaşdırılması aksiyasına dəstək olaraq, "Ən gözəl Bakı eyvanı" müsabiqəsi elan olunmuş, I, II, III yerlər üçün pul mükafatı müəyyən edilmişdir.

Bələdiyyədə "açıq qapı günləri" elan edilmiş və mütəmadi olaraq məhdudiyyətsiz şəkildə bələdiyyə üzvləri tərəfindən vətəndaşların qəbulunun təşkili həyata keçirilmişdir.

Hesabat dövründə Nəsimi rayon Gənclər və İdman İdarəsi tərəfindən ötən ildə gənclərlə aparılan işlərin daha səmərəli qurulması məqsədi ilə rayondakı idarə, təşkilat, müəssisə, orta və ali təhsil ocaqları, bələdiyyə ilə birgə sıx əməkdaşlıq aparılmış, rayondakı gənclər təşkilatları, mədəniyyət ocaqları ilə sıx əlaqələr qurulmuşdur. İl ərzində idarə tərəfindən gənclər sahəsi üzrə keçirilən 45 tədbirdə 7654, bədən tərbiyəsi və idman sahəsi üzrə keçirilən 25 tədbirdə 3486 nəfər yeniyetmə və gəncin iştirakı təmin olunmuşdur.

Sentyabr ayının 11-də RİHBA-da keçirilən Nəsimi rayon İcra Hakimiyyəti Başçısı yanında Şuranın geniş tərkibli iclasında rayonda keçən tədris ilinin yekunları və yeni təhsil ilinə hazırlığın vəziyyəti müzakirə olunmuşdur. Tədbirdə qəbul imtahanlarında yüksək nəticələr göstərmiş məzunlara rayon İcra Hakimiyyəti tərəfindən qiymətli hədiyyələr təqdim olunmuş, Qarabağ müharibəsi əlilləri, veteranları, şəhid və aztəminatlı ailələrdən olan 200 uşağa məktəbli forması hədiyyə edilmişdir.

2014-2015-ci tədris ilində rayonun orta məktəblərini 1532 nəfər bitirmiş, onlardan 1378 nəfəri ali məktəblərə qəbul olunmaq üçün sənəd vermişdir. Abituriyentlərin 957 nəfəri tələbə adını qazanmışdır. Qəbul imtahanlarında abituriyentlərdən 200 nəfəri 500-dən yuxarı, 72 nəfəri 600-dən, 29 nəfəri isə 650-dən çox bal toplamışdır. Məzunlarından 166 nəfər xarici ölkələrin müxtəlif ali məktəblərinə qəbul olunmuşlar.

Bakı Türk Anadolu Liseyinin məzunu Məcidov Nurlan Namiq oğlu 700 bal toplayaraq, Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olmuşdur.

2014-2015-ci təhsil ilinin yekununa görə Nəsimi rayonu üzrə 5 məzun qızıl medala, 4 nəfər isə Prezident təqaüdünə layiq görülmüşdür.

"Bilik günü" ənənəvi olaraq Nəsimi rayonunun bütün ali və orta təhsil müəssisələrində təntənəli şəkildə qeyd olunmuşdur. Yeni dərs ili ərəfəsində məktəblərdə böyük hazırlıq işləri aparılmış, ilk dərs günü 27 orta məktəbdə dərslərə başlanmışdır.

Sentyabr ayının 22-23-də Qurban bayramı münasibəti ilə RİH-in təşkilatçılığı ilə 44 saylı orta məktəbdə rayonda yaşayan şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, II Dünya müharibəsi veteranlarına, ərazidə məskunlaşmış məcburi köçkün ailələrinə, qaçqınlara, kimsəsizlərə, tənhalara, yataq xəstələrinə və yardıma daha çox ehtiyacı olan şəxslərə - ümumilikdə 2000-dən çox ailəyə qurban payları təqdim edilmişdir.

Sentyabr ayının 30-da 1 Oktyabr—Beynəlxalq Ahıllar Günü Nəsimi rayonunda geniş şəkildə qeyd olunmuşdur. Əlamətdar günlə əlaqədar Nəsimi Rayon İcra Hakimiyyətində rayonun ahıl, kimsəsiz, əlil və qayğıya ən çox ehtiyacı olan vətəndaşlarının bir qrupu - ümumilikdə 150 nəfərin iştirakı ilə keçirilən görüşdə ahıllara RİH tərəfindən hədiyyələr təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 02 oktyabr 2015-ci il tarixli Sərəncamı ilə Nəsimi rayonundan 3 nəfər "Tərəqqi" medalı ilə (Süleymanova Sevil Yəhya qızı - 23 saylı tam orta məktəbin müəllimi, Mirzəyeva Amalya Səyyad qızı 5 saylı tam orta məktəbin müəllimi və Tkaç Lyudmila Mixaylovna - Elitar Gimnaziyanın müəllimi) , 1 nəfər isə "Əməkdar müəllim" (Həsənova Tamella Tosim qızı - 23 saylı tam orta məktəbin müəllimi) adına layiq görülənlər və rayonun bir qrup qabaqcıl təhsil işçisinə rayon İcra Hakimiyyətinin qiymətli hədiyyələri təqdim olunmuşdur.

Noyabr ayında Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsünün təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start götürmüş "Ümumrespublika yaşıllaşdırma marafonu"na ilk qoşulanlardan biri məhz Nəsimi rayonu olmuşdur. Aksiya çərçivəsində rayonda keçirilən ağacəkmə kampaniyaları zamanı 2 minə yaxın yeni ağac və gül kolları əkilmiş, əvvəlcədən hazırlanmış sahəyə qazon otu döşənmiş, əvvəl əkilmiş ağaclara qulluq göstərilmişdir.

Nəsimi rayon İcra Hakimiyyəti Başçısı yanında Dini İşlər üzrə komissiyanın keçirdiyi geniş iclasından sonra Nəsimi rayon Gənclər və İdman idarəsi tərəfindən ali təhsil müəssisələrində Tələbə Gənclər Təşkilatlarının və tələbələrin iştirakı ilə bu mövzuda maarifləndirici silsilə tədbirlər təşkil edilmişdir.

Dekabr ayının 22-də Nəsimi rayon İcra Hakimiyyəti Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu ilə birlikdə ali və orta təhsil müəssisələrinin rəhbərlərinin, hüquq-mühafizə orqanlarının, qeyri-hökumət təşkilatlarının və tələbə gənclərin iştirakı ilə "Gənclər narkomaniyaya YOX deyir!" mövzusunda tədbir keçirmişdir.

Hesabat dövrü ərzində rayon gənclərinin həqiqi hərbi xidmətə çağırışı məsələləri rayon İcra Hakimiyyəti tərəfindən ciddi nəzarətdə saxlanılmışdır. Yanvar və aprel, iyul aylarında həqiqi hərbi xidmətə çağırış kampaniyası ilə əlaqədar RİH Başçısının sərəncamı ilə rayon üzrə çağırış komissiyalarının tərkibi təsdiq olunmuş, çağırış müddətində komissiyaya lazımi şərait yaradılmış, tələb olunan nəqliyyat vasitələri ilə təmin olunmuşlar.

2015-ci il ərzində 2 nəfər Qarabağ müharibəsi əlili, 7 nəfər şəhid ailəsi, 3 nəfər 20 yanvar əlili, 1 nəfər gözdən əlil yeni mənzillərlə təmin olunmuşlar.

Ötən il respublikamızda keçirilmiş V çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə Nəsimi rayon ictimaiyyəti yüksək fəallıq nümayiş etdirmişdir. Seçkilər rayon ərazisində fəaliyyət göstərən 21 saylı Nəsimi birinci, 22 saylı Nəsimi ikinci və 23 saylı Nəsimi-Səbail seçki dairələrinin hər birində yüksək mütəşəkkillik, şəffaflıq və obyektivlik şəraitində keçirilmişdir. Seçkilərin keçirilməsində rayon İcra Hakimiyyəti və onun struktur bölmələri qanunvericiliyə uyğun olaraq üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsini təmin etmişdir.

Nəsimi rayonunda 3 məscid, 3 sinaqoq, 1 provaslav kilsəsi və 1 Lüteran kilsəsi vardır. 3 dini icma Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən rəsmi dövlət qeydiyyatından keçmişdir.

Ümumilikdə rayon ərazisində "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun, tolerantlıq - dini dözümlülük mühitinin ziddinə olan hallar, adət və ənənələrin pozulması, ayrı-seçkilik faktları müşahidə olunmamışdır.

RİH tərəfindən TV və qəzetlərin nümayəndələri ilə sıx əməkdaşlıq edilir, onlara rayon, onun müəssisə və təşkilatlarında gedən proseslər barədə vaxtaşırı məlumatlar verilir, jurnalistlər keçirilən tədbirlərə dəvət olunurlar.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2015-ci il tarixli sərəncamı ilə Ş.Ələkbərova adına 20 saylı musiqi məktəbinin direktoru Məmmədova Sevda İbrahim qızı Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" Fəxri adı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2015-ci il tarixli sərəncamı ilə 54 və 240 nömrəli tam orta məktəblər "Ən yaxşı məktəb" müsabiqəsinin, 5 nömrəli tam orta məktəbin müəllimi Abdullayeva Gülnarə Bəşir qızı, 16 nömrəli Texniki Humanitar Liseyin müəllimi Abidi Gülnarə Abusəməd qızı, 44 nömrəli tam orta məktəbin müəllimi Əliyeva Sahilə Vahid qızı, Bakı Slavyan Universitetinin nəzdində Məktəb-lisey kompleksinin müəllimləri Əlizadə Aynur Məmməd qızı, Şahbazov Rafət Məmmədəli oğlu, Elitar Gimnaziyanın müəllimi Məmmədova Zeynəb Əliqasım qızı, 23 nömrəli tam orta məktəbin müəllimi Nəcəfova Bikə Əliyulla qızı, 164 nömrəli tam orta məktəbin müəllimi Allahverdiyeva Afət İkram qızı 2014-2015-ci tədris ilində keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsinin qalibləri sırasında olmuşlar.

Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli, 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Nəsimi rayon İcra Hakimiyyəti tərəfindən 2015-ci il ərzində müvafiq tədbirlər həyata keçirilmişdir.

2015-ci il ərzində "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə ciddi əməl edilməklə Rayon İcra Hakimiyyəti Başçısı Aparatı, sahə inzibati ərazi dairələri nümayəndəliklərində vətəndaşların yazılı və şifahi şəkildə təkliflər vermək, ərizə ilə müraciət etmək hüquqlarının həyata keçirilməsi üçün zəruri şərait yaradılmışdır.

İl ərzində RİH Başçısı Aparatına vətəndaşlardan 1438 ərizə və müraciəti (2014-cü ildə 1435 ərizə) daxil olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" 2015-ci il 29 aprel tarixli 503 nömrəli Fərmanın tələblərinə və həmin Fərmanla təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə Qaydaları"na uyğun olaraq irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. 2015-ci il üzrə 1319 müraciət ilə bağlı məlumat vahid elektron sistemə daxil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən bu sahədə mütəmadi olaraq verilən tapşırıq və tövsiyələrə əməl olunması məqsədilə işlər davam etdirilir.

2015-ci il ərzində Nəsimi rayon İcra Hakimiyyətinə vətəndaşların 1938 ərizə və müraciəti daxil olmuşdur və bu müraciətlər rayonun müvafiq xidmət sahələri tərəfindən araşdırılaraq qanunvericiliklə müəyyən olunmuş qaydalara əsasən baxılmışdır.

Bakı şəhəri Nəsimi rayonunun sosial-iqtisadi göstəricilərinin bundan sonra daha dinamik inkişafına nail olunması, sakinlərin rifahının daha da artırılması, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarının icrası, Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi üçün Nəsimi rayon İcra Hakimiyyəti, yerli strukturlar, müəssisə və təşkilatlar tərəfindən məqsədyönlü tədbirlərin həyata keçirilməsi davam etdiriləcəkdir.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**